**1.** Tərəfləri *a, b, c* olan üçbucağın *a* və *b* tərəflərinin qarşısında yerləşən bucaqlar, uyğun olaraq, $62^\circ$ və $68^\circ$-dir. Bu üçbucağın tərəfləri arasında hansı münasibət doğrudur?

A) $b > c > a$ B) $a > b > c$
C) $c > a > b$ D) $b > a > c$
E) $a > c > b$

*(6 aprel 2025, DİM)*

**2.** Düzbucaqlı üçbucağın bir katetinin hipotenuzuna nisbəti 4:5, perimetri 48 sm olarsa, hipotenuzunun uzunluğunu tapın.

*(2 mart 2025, DİM)*

**3.** Oturacağı 16 sm olan bərabəryanlı üçbucağın təpə bucağı $120^\circ$ olarsa, yan tərəfini tapın.

A) $\frac{8\sqrt{3}}{3}$ sm B) $\frac{5\sqrt{2}}{3}$ sm
C) $\frac{16\sqrt{3}}{3}$ sm D) $8\sqrt{2}$ sm
E) $4\sqrt{3}$ sm

*(14 aprel 2024, DİM)*

**4.** Üçbucaqda $a = 12$ sm, $\alpha = 30^\circ$, $\beta = 60^\circ$ olarsa, *b*-ni tapın.

A) 14 sm
B) $18\sqrt{3}$ sm
C) 16 sm
D) 13 sm
E) $12\sqrt{3}$ sm




*(3 mart 2024, DİM)*

**5.** ABC düzbucaqlı uçbucağında BM tənbölən, CN- hündürlük və $\angle A = 68^\circ$ olarsa, $\angle BOC$ –ni tapın.




*(3 aprel 2022, DİM)*

**6.** ABC üçbucağında $AB = BC$, $AM \perp BC$, $BM = 14$, $MC = 2$ olarsa, AC oturacağının uzunluğunu tapın.




A) 14 B) 5 C) 8 D) 2 E) 6

*(13 mart 2022, DİM)*

**7.** Hipetonuzu 25 sm, katetlərindən biri isə 15 sm olan düzbucaqlı üçbucağın o biri katetinin uzunluğunu tapın.

A) 19 sm B) 20 sm C) 24 sm
D) 16 sm E) 14 sm

*(12 mart 2022, DİM)*

**8.** Düzbucaqlı üçbucağın iti bucaqlarından biri o birindən 4 dəfə kiçikdir. Böyük iti bucağı tapın.

*(6 mart 2022, DİM)*

Düzgün cavablar

1D 2 (20) 3C 4E 5 (101) 6C 7B

8 (72)